Elvira Araslı

# Səhra gəmisi — Dəvə

Dəvə — Allah-Təalanın ən həyalı heyvanıymış...

Dəvə elə bir məxluqdur ki, bütün Ərəb cəmiyyəti onun ətrafında araya-ərsəyə gəlib. Ərəb heç şübhəsiz ki, dəvə olmadan səhranı ram eləyə bilməzdi. Yalnız bu heyvan əhliləşəndən sonra ətrafda, ins-cins olmayan, uzandıqca-uzanıb gedən çöllərdə köçəri bədəvilər məskən salacaqdı. Alimlərin gümanına görə, bu yerlərdə köçəri həyat təxminən bizim minillərdən əvvəl, 11-ci əsrdə əmələ gəlib. Belə çıxır ki, dəvənin əhliləşdirilməsi burdakı qəbilə və tayfaların yerdəyişməsinə, qonşuların həmlə-hücumuna və ucu-bucağı görünməyən bu boyda ərazidə bədəvilərin ağalıq etməsinə gətirib çıxarıbdır.

Şərqdəki bir sıra dövlətlərin minillər boyunca qüdrəti və əzəməti, sözün hərfi mənasında nəhayətsiz səhraları belə yorub-yortan dəvə karvanlarından asılı olub.

İtin-pişiyin, atların belə hansı heyvandan törəndiyi məlumdur. Dəvənin mənşəyi isə heç elmin özünə də bəlli deyil. Dəvə ta qədimlərdən bəşər cinsinə məlum olsa da, dəvənin hardan, kimdən törəndiyi hələ sirr içindədir. Belə çıxır ki, dəvə həmişə olubmuş. Hətta Misirdə tapılan, yaşı 5 min ildən artıq olan dəvə fiquru da alimləri bu sirrin hikmətinə yaxınlaşdıra bilməyib. (Özü də həmin fiqurda yüklü dəvə təsvir olunub).

Tək hörgüclü əsl ərəb dəvəsi ev heyvanları içərisində ən tanıqlısı, möhtəşəm səhranın hər bir şıltağına dözümlüsüdür. Ümumən götürəndə, dəvələr üç qismə ayrılır. Ağır ləngərli birincisi - karvan dəvəsidir. Çəkisinə görə ikincisi, ondan bir az yüngüldür, həm də qıvraqdır. Hələ köşəkliyindən minik üçün yetişdirilir. Üçüncü qismə isə yürüş dəvələri aiddir - beləsi yorulmaq bilmir, ayaqdan da iti olur.

Bədəvi üçün dəvə misilsiz, əvəzsiz bir məxluqdur. Bədəvi külfətinin binəsi dəvə üstündə qurulub. Dəvənin əti-piyi yeyilir, südü içilir. Yunundan parça, ədyal, keçə, palaz toxunur, iplik əyrilir. Dərisindən tuluq, ayaqqabı, çanta və başqa şeylər düzəldilir. Sümüklərindən iynə-qıyıq, gübrə və gündəlik lazım olan şeylər həslə gəlir. Peyini - istilikdi, ocağa qalanır. Bilməmiş olmazsız, bu heyvan yaxın günlərəcən Şərqdə yeganə nəqliyyat vasitəsi - yükdaşıyan idi. Ta qədimdən, bir adamın var-dövləti ondakı dəvələrin sayı ilə ölçülərdi. İndinin özündə də baxırsan ki, bəzi ərəb ölkələrində dəvə - qeyri-rəsmi olaraq pul vahidi sayılır. Hələ üstəlik, dəvə - evlərə köçən qıza cehiz də verilir.

Ərəb dəvələri asiyyət dəvələrindən fərqli olaraq daha yekədi, boyları adətən iki metrdən daha hündür olur. Çəkiləri yarım tona çatır. Çox maraqlıdır ki, təbiət bu heyvanı iqlimin hər cürə şıltağından qorumaq üçün ona bir sıra keyfiyyətlər bəxş eləyib. Məsələn, irəli çıxan qalın qaşları, qoşa cərgə sıx kiprikləri, dəvənin ağıllı və müdrik gözlərini aləmi yandırıb-yaxan günəşdən, eləcə də səhradakı qum sovruğundan qoruyur. Gözlərin hədəqəsi də elə bil dəvənin bəbəklərini qorumaqdan ötrü bir pərdə misalıdı. Səhrada xamsin kükrəyəndə dar və uzun burun pərələri pəncərə layı kimi kip bağlansa da, narın qumu belə içəri buraxmır; amma bu hal dəvənin nəfəs almağına əngəl törədə bilmir. Ağız boşluğu dəvədə tamamilə fərqlənir, damaqlar ağrını qətiyyən hiss eləmir. Odu ki, heyvan dəvətikanını nə qədər yesə də ağzına batmağından ehtiyat eləmir. Dəvənin çənəsi çox qüvvətlidir. Bir göz qırpımında mənəm bir kişinin biləyini çeynəyibən qolunu qaltağa çevirə bilər.

Təsəvvürə gətirin ki, o boyda ağır cüssə uzun və hətta incə görukən ayaqlar üstündə, həm də nisbətən kiçik dabanlara diranibən dayanır. Qarından yuxarısa dəvənin gen sinəsi, həm də hörgücü nəzərə çarpır.

Döyənək olmuş daş kimi möhkəm dirsəklər, dizlərin gözü və girli sinə dəvəyə imkan verir ki, ən qızmar qumun üstündə belə çöküb dincələ bilsin. Uzun, əyri boynu, amiranə tərzdə, qürurlu başı isə əzəmət nişanəsidir və elə bil ətrafda nə varsa, hamısına yuxarıdan aşağı baxır və hər şeyə biganədir.

Dəvə barəsində onu da deyək ki, bu heyvan öz həyat göstəricilərinə görə hamıdan üstündür. Əgər Ginnesin heyvanlara məxsus rekord kitabı olsaydı, dəvə istər hərfi, istərsə məcazi mənada yerdəki məxluqların hər birisinin üzünə "tüpürmüş" olardı. Çünki, dəvənin həyat sistemi heyrətamizdi. Lap elə ondan başlayaq ki, bu çox istiqanlı heyvanın bədən hərarəti istər-istəməz təəccüb doğurur. Belə ki, gecələr dəvənin hərarəti 34 dərəcəyə enir, gündüzsə, sağlamlığına heç bir xələl gətirmədən 41 dərəcəyə qədər yüksəlir.

Dəvənin hörgücü - bu elə bir anbardır ki, heyvan orda 150 kiloqrama qədər piyi qoruyub saxlayır. Hansı ki, lazım gələndə dəvənin bədəni o piydən qüvvət alır, orqanizmində su çatışmayanda susuzluğunu yatızdırır. Elə bu səbəbdən, dəvə iki həftə sərasər susuz yaşamağa qadirdir. Tərkibində su olan bitkiləri yeyəndəsə bir neçə həftə susuzluğa dözür. Ancaq bu o demək deyil ki, su rastına çıxanda ondan imtina eləyə, əksinə, sucağa çatanda doyunca yükünü tutur. Əgər su təzədisə, dəvə dəqiqədə 10-20 litrə qədər su içir; bir öynə su içməyisə 100-150 litr arasındadı. Dəvə, lazım gələrsə insan və digər heyvanlar



üçün zərərli olan - iylənmiş suyu da içə bilir. Yağış mövsümündə gecə dəvələri nəmişdə, ya çölün düzündə qoyub gəlirlər ki, heyvanlar həm öz susuzluğunu yatırsın, həm də gərəkincə su ehtiyatı götürsün. Ümumiyyətlə, dəvələrin suya fəhmi güclüdür. Dəvə hələ uzaqdan qumun, ya daşlığın bir neçə metr dərinliyində olan suyun hənirini hiss eləyir. Elə hallar da olub ki, dəvə susuzluqdan az qala ağlını itirən yiyəsini birbaş suyun üstünə, quyu başına aparıb çıxarıb. Onu da nəql edirlər ki, keçmişdə köçəri tayfası elə hal olub ki, dəvənin qarnındakı sudan içib sağ qalıb. Axı dəvə qoşaqarındır. Susuzluqdan ciyəri pörtdəmiş bədəvi, özünü xilas naminə dəvəsini qurban verir. Yəni dəvəni kəsir, heyvanın qarnındakı yaşımtıl boz-bulanıq mayedən içir, beləliklə də bədəvi ölmür, təzədən həyata qayıtmış olur.

Hörgüc dəvənin bədənində indikator rolunu oynayır. Əgər heyvan xəstədisə, yaxud çoxdan bəri acdısa-susuzdusa, dəvənin hörgücü get-gedə əriyir, qırışır, az qala kürəyinə yapışır. Dəvənin orqanizmi sağlamdısa, heyvan toxdusa, hörgüc dim-dik dayanır. Onu da deyək ki, dəvənin yəhəri və çulu da onun hörgücünə uyğun düzəldilir, həm də hörgücə bərkidilir.

Dişi dəvə (naka) iki ildə bircə bala doğur. Doğmamışdan bir neçə saat əvvəl, çidarlı olsa belə sürüdən ayrılır, səhranın dərinliyinə gedir. Hətta deyirlər, ətrafda artıq səs-küy varsa, dəvə öz doğuşunu ikicə gün gecikdirə bilər. Dəvə mayası çox qayğıkeş anadır. Balası dünyaya gələndən ilyarım sonrayacan ana dəvə balasıynan öz səsi, öz nəvəsiynən



danışır və balasının həndəvərinə nə insan, nə heyvan, ins-cins belə buraxmır. Çox qəzəbli olur. Köşəyi anasından ayırmaq istəyəndə, balanın burnuna taxta bağlayırlar ki, köşək anasının yelilinə təpiləndə anasını ağrıtsın, o da istər-istəməz balanı burunlamış olsun. Belədə ana köşəyi süddən kəsir, bala da istər-istəməz ayağının altından otlamaq məcburiyyətində qalır. Bu qış fəslinə düşürsə, yəni qış - səhrada ot-əncər bitən vaxtı, köşək əmələ gəlir, tezliklə ayaqlarının üstündə möhkəm dayanıb-dura bilir. Əgər bədbəxtlik baş versə, yəni bala ölmüş olsa, anası balasının leşi üstündə eləcə dayanıb durur, ağlayır, əsl göz yaşı axıdır. Yalnız leş aradan götürüləndən sonra o yerdən aralanıb gedir. Hətta ana dəvənin vaxtilə qarnından çıxan qeyri balalar da anaları kimi qəmə-yasa batırlar...

Dəvə südü çox xeyirlidi, tərkibində bir çox maddələr var - kalsi, mis, dəmir, fosfor və başqa elementlər... İnək südünə nisbətdə, dəvə südündə C və D vitaminləri üçqat artıqdı. Hətta belə deyirlər ki, dəvə südü - kişiliyə dərman olan viaqradan belə neçə dəfə xeyirlidi. Bədəvilərin sözünə görə, dəvə südü qışda isidir, yayda sərinlədir. Həm qidadır, həm dərman; üstəlik həm də cavanlıq məcunu. Quraqlıq əyyamında bədəvilər öz təşnələrini dəvənin südüylə söndürür. Təbiətin bu halı aylarla uzanıb gedə bilər. Dəvə südünün dadı-duzu, şorluğu-şirinliyi heyvanın yemindən asılıdı. Bu südün zığı azdır. Ondan nehrə çalxalasan da yağ ala bilməzsən. Gəl ki, köçərilər dəvə südündən üzsüz, yumru pendir tuturlar. Həmin pendir bizim yerlərdəki quruta da oxşayır. Bədəvilər sonra onu isladıb, ondan duru xörək bişirirlər.

Maya dəvə gündə 6-7 litr süd verir. Köşəyini, yaxud onun dərisini görməsə süd verən deyil. Gündə iki dəvə sağılır, amma onu sağan kimdisə əllərini gərək tər-təmiz yusun. Bədəvilər deyir - dəvə kirli əllərə süd sağdıran deyil, mütləq südünü qısacaq.

...Biz Səudiyyə Ərəbistanında yaşayanda, indiki Səudiyyə kralı Abdullanın arvadı ülyahəzrət Hessa ölkədəki səfir arvadlarının hamısını şəhər qırağındakı saraya qonaq çağırmışdı. Sarayın dəbdəbəsindən, bizə yedizdirilən löyünbəlöyün dadlı təamlardan, bir sözlə, qonaqpərvərlikdən ağızdolusu danışmağa dəyməz. Həm də bu məclisdə, hər biri uduş gətirən lotereya oynanırdı.

Sözümü dəvələrin üstünə gətirirəm. Biz sarayın həndəvərindəki geniş əraziyə çıxan kimi dəvə sürüsünü gördük. Dəvələr yamyaşıl ağacların, kolların, çılpaq təpələrin arasında gəzişirdi. (Dəvənin mədəsi şirəli otu, çox yemləri götürmür. Onun üçün ən yaxşı qida - dəvətikanıdı).

Saraydakı qonaqlığın bir maddəsi də dəvəyə minmək idi. Bizi ciplərə otuzdurub aparanda, mən dəvələrin görkəminə heyran qaldım. Hamısı hündür, təmiz, qaşovlu nəhənglər idi. Onlara minmək nədi, heç yaxınına getmək belə ağlımıza gəlməzdi. Hər halda mən öz hisslərimi gizlətməyə çalışdım. Ordakı dəvəçi, xırda bir işarə ilə yaxındakı dəvəyə işarə elədi və dəvə də elə o dəqiqə dinməzsöyləməz xıxırdı, yəni düz qənşərimdə qu-

mun üstünə çökdü. Hörgücünə bərli-bəzəkli yəhər bağlanmışdı. Fikirləşməkdən keçmişdi, birtəhər yəhərə əyləşdim. Bu hələ harasıydı? Dəvə başladı ayağa durmağa, dörd dəfəyə qalxdı. Əvvəlcə arxasını yığışdırdı, sonra qabaq ayaqlarını və yenə də geriyə-irəliyə silkələnib, ayağa qalxdı. Birdən-birə yerdən o qədər aralandım ki, nəfəsim daraldı. Mindiyim nəhəng, təpələrə sarı yönəldi. Məndə elə təsəvvür yarandı ki, elə bil kükrəyən nəhayətsiz dənizin ortasındakı gəminin dor ağacına minmişəm. Hardasa onu da oxumuşdum ki, guya dəvəyə minib yol gedən adam istəsə, hətta dəvənin üstündə yazı da yaza bilər. Vaxtilə ərəb xilafətinin çaldığı zəfərlərin bir qismi, dəvənin belində oturub yağını sərrast nişan alan oxçuların da payına düşür.



...Dəvəyə minməyimdən bir müddət keçdi və hətta bu xırdaca səyahətin sonunda dəvənin yerişinə o qədər öyrəşdim ki, hətta özümü qızıl saçaqlı kəcavənin içərisində oturub harasa uzaqlara, nağıllar məmləkətinə üz tutan bir ülyahəzrətə də oxşatdım.

Qayıdandan sonra da bizimçün sürpriz varmış. Bizə, təzə sağılmış dəvə südü təklif olundu. Yenə ciplərə minib yanı balalı dəvə ağıllarına sarı yollandıq. İçəridən südəmər dəvə balasını çıxardıb, anasının yanına gətirdilər. Yalnız balasını görəndən sonra dəvə özünü sağdırmağa izn verdi. Açığını deyim ki, bu südün dadı nəsə mənə çatmadı. Bəmbəyaz, şortəhər kefir tamı verirdi. Amma, yadıma düşəndə ki, dəvə südü adamı cavan saxlayır, stəkanı axıra qədər başıma çəkdim...

Uzaq səfərlərdə, qumsalları, yüksək təpələri, qızmar əkin-biçin yerlərini ötüb keçəndə belinə şəlit yüklənmiş dəvə, yavaş getsə gündə 30-40 kilometr (miniklə 100 kilometr) yol gedir. Hələ üstəlik belinə 250-400 kilo yük vurulmuş ola... Belə yük dəvənin öz çəkisinin təxminən yarısı qədərdir. Bu heyvan necə qüvvətli, necə dözümlü, necə də səbrliymiş! Amma burda bir maraqlı cəhət var. Nədənsə tərəkəmələr belə işlərdə, qəribə də olsa, dişi dəvələrə daha üstünlük verir. Bəs demə, dişilər daha qayğıkeş, sözəbaxan və erkəklərə nisbətən daha cəsur, daha artıq dözüm yiyəsidir. Onlar öz yüklərini, haldan düşüb çökənə qədər daşıyır və öz çarəsizliyini, əzabını dərindən çəkilən ahlarnan, gerçəkdən göz yaşı axıdaraqdan biruzə verirlər.

Dişi dəvələrlə onların yiyələri arasında bir etibar hökm sürür. Kiməsə satılmış dişi dəvələr, elə olur ki, təzə yiyələrindən qaçıb əvvəlki doğma köçə qayıdırlar. Hətta söhbət gəzir ki, hansısa bir dəvəsə beş il səhrada dolaşandan sonra, axır öz doğma yatağına qayıdıb gəlibmiş.

İslama qədərki bədəvi poeziyasında dəvənin dişisinə bir çox lirik mənzumələr həsr olunub. Yeri gəlmişkən deyək ki, bəzi şərqşünaslar ərəb şerinin özünəməxsus ahəngini karvanın ritmindən gəlməsi fikrindədir. Naka - şairlərin ən sevdiyi söz, həyat rəmzi, halallıq ifadəsi, salğamlıq, həm də məhəbbət nişanəsidir. Sevgilisinə vurğun bədəvi, istədiyi qızı, onun üçün əziz olan özünün dişi dəvəsi ilə müqayisə eləyir. Deyir ki, o da öz adaxlısını, nər dəvə öz dişisini sevən kimi sevir.

Orasını da ərz eləyək ki, neftlə zəngin olan ərəb ölkələrində hətta dəvələrin gözəllik müsabiqəsi də keçirilir. Yaraşıqlı dəvələr qumsal podiumlara qalxır, başlarını dik tutub qalın dodaqlarını sallayır və münsiflər heyətinə yuxarıdan aşağı, ikrahla nəzər yetirirlər.

Erkəklərə gəlincə, onlar bəzən çox qeyzli, inadkar və kinli olur. Bu cəhət - bizim dəvələr barəsində olan sakit, dinc məxluq təsəvvürümüzü puça çıxarır. Elə bilirdik, bu cür heyvanlar olsa-olsa, ildə-ayda bir dəfə öz xasiyyətini biruzə verir, yaxud da zooparkda onlara ilişən tamaşaçının üzünə tüpürməklə hirsini soyutmuş olur. Dəvə təbdən çıxanda, hirs-

ləndə, ağzını şar kimi doldurub, bəzən çəkisi bir litrə çatan qatı, yaşıla çalan tüpürcək atır. Bunlar nədir ki? Döl vaxtı onlar yola getmir, bir-birinin üstünə hücum çəkir, hətta qabağına çıxan insanı belə şikəst gününə qoyurlar. Onların dişdəmi də, zərbəsi də çox xatalıdı. Hətta elə olub ki, dəvə onu incidən məxluqu gözətləyib və fürsət tapan kimi onun xirtdəyini çeynəyib yerindən qoparıb. Bu səbəbdən, necə deyərlər, belə qabağından yeməyən dəvələrin başına xamut taxırlar. Nərlərin bu xasiyyəti barədə bir sıra dəvəçilərdən cürbəcür hekayətlər eşitmişəm.

Bir dəfə xırda bir karvanın sahibi aşırımı keçəndə, yağışdan sonra əmələ gələn gölməçədə dəvələrini sulamaq istəyib. Dəvəçi başdakı dəvəyə yaxınlaşıb və onu ayağa durğuzmaq istəyib. Amma, yorğun düşən dəvə inad göstəribən durmayıb. Belə olan halda sahib başlayıb qırmancla onu döyməyə. Dəvə yenə yerindən tərpənməyib. Sadəcə olaraq acıqlı baxışlarla öz sahibinə baxmaqda davam eləyib. Baxıb-baxıb və elə bil öz ağrı-acısının hər anını yadda saxlamağa çalışıb. Başda gedənin ayağa durmadığını görən karvandakı o biri dəvələr də yerindən tərpənməyib. Nəhayət, karvanbaşı elə bil dəvənin baxışlarındakı qəzəbi sezib və dəvədən əl çəkib... Axşam düşüb, dəvələr dincələndən sonra suvata da durub özləri gedib. Şişman qarınla, dimdik hörgüclə qayıdıb gəliblər. Yenə də karvanbaşının çadırının yanında xıxırdıblar. Amma biləngə karvanbaşı öz işinin ustası olub, dəvənin də xasiyyətinə bələdmiş, ayıq-sayıq yatıb. Gecənin qaranlığında o iri bir kisəyə ot-əncərdən doldurub özünün yatdığı yerə qoyur, üstünə də yorğan çəkir. Özüsə hiss olunmadan çadırdan çıxır, bir az aralıda təpənin döşündə yerə həsir salıb uzanır, amma gözünü çadırdan çəkmir. Ayın işığında dəvəçinin gözü tükü-tükdən seçirdi.

Bir müddət keçir, araya sakitlik çökür. Bədəvinin gözləri asta-asta lillənir. Və birdən elə bil ağacın budağı sınır. Kişi görür ki, döydüyü həmən o baş dəvə yavaş-yavaş qabaq ayaqları üstdə dikəldi, həmin adam nəfəsini çəkmədən zillənir ki, görək sonrası nə olacaq. Dəvə qalxıb ehmalca çadıra sarı yönəlir. Çatanda dayanır, bir anlığa elə bil götür-qoy eləyir, sonra içəriyə təpilir. Bədəvi baxır ki, dəvə bütün ağırlığı ilə onun yatağının üstünə çıxdı və yerə sinib dizləri-dirsəkləri ilə yatağı əzişdirdi. Kişi Allaha şükür eləyir ki, əgər səbri çatmasaydı, vaxtında tədbir görməsəydi, yəqin ki, indi xurd-xəşil olacaqdı. Bədəvi özünü saxlaya bilmir, çomağı qapıb çadıra cumur. Səs eşidən dəvə ayağa qalxır, düşmənin sağ-salamat olduğunu görür, bir neçə an dayanıb baxır, sonra özünü saxlaya bilməyib təzədən axırıncı dəfə yerə çökür və sonradan məlum olur ki, dəvənin kindən-küdurətdən ürəyi partlayıbmış...



Səudiyyə Ərəbistanında, Tayif adlanan nisbətən dağlıq yerdə baş verən bir əhvalatı da danışım. Necə olursa, köçəri bədəvi təsadüfən dəvələrin cütləşməsini görür. Onu da deyim ki, bu heyvanlar başqalarından fərqli olaraq, son dərəcə abırlı və utancaqdır. Dəvənin xasiyyətinə yaxşı bələd olan yiyəsi bir neçə gün nər dəvənin gözünə görünmür, sonra da xatadan yaxa qurtarmaq üçün həmin dəvəni kiməsə satır.

Üstündən 10 il keçmiş olur. Həmin tərəkəmənin bazara yolu düşür. Və birdən çoxdan bəri satdığı dəvəni görüb heyvanı damğasından tanıyır. Qəribəsi də budu ki, dəvə də keçmiş sahibini tanıyır. Bədəvi, heyvanın ona baxan kinli baxışlarını sezib tez aradan çıxmağa çalışır. Dolu kisələrin, səbətlərin, qoyun-keçinin, həsirlərin-palazların üstündən hoppana-hoppana qaçıb uzaqlaşmaq istəyir. Dəvə onun dalınca düşüb qovur, axır ki, kişi-

yə yetişir, onu yerə yıxıb sıxır, dizi ilə onu yastılayır. Əli silahlı polislər gəlib yetişənəcən həmin bədəvi artıq canını tapşırmış olur.

Əlbəttə, bu cür əhvalatlar çox nadir hallarda baş verir. Və olanda da nəsildən-nəslə nəql edilir. Belə bir nəticə hasil olur ki, "səhra gəmisi" çoxdan ələ öyrəşib əhliləşsə də, - heyvan elə heyvandı; Onu yaddan çıxarmayaq ki, dəvə özünə qarşı hörmət və ciddi münasibət xoşlayan məxluqdur.

Yüzillər boyunca dəvə köçəri üçün onun həyatında əsas amil və dolanışıq vasitəsi olub. Dəvə bədəvini yedirib-içirib, qum qasırğasından qoruyub, onun üçün yük daşıyıb, köçərini yun, dəri, ağartıynan təmin eləyib, onu istidən-soyuqdan qoruyub. Dəvə bədəvidən fərqli olaraq özü öz başını dolandıra bilir. Acıyanda özünə yem, susayanda özünə su tapır. Həm də dəvənin təbiətdə sən deyən bir düşməni də yoxdur. Dəvənin bədəvidən nə umacağı var ki?! Tərəkəməsə dəvəsiz keçinə bilməz. Odu ki, heç də təəccüblü görünməsin ki, yüzillər boyunca bədəvi dediyin kəs, onları yedirib-içirən bu heyvanı tərifləyib göyün yeddinci qatına qaldırıbdır. Tədqiqatçılar ərəb ədəbiyyatında belə tərif və bənzətmələrin sayını 5 min 744-dən çox olduğunu deyir.

Dəvənin əsas adı Camaldı. Yerdə qalanları isə dəvə ömrünün müxtəlif ay və illəri ilə bağlıdır. Belə ki, köşəyin böyüyüb-başa çatması, hər iki cinsin yaşadığı illər, ilkini doğan maya, həm də qısırı, istər sürüyə qatılan, istər minilən sağlamı, xəstəsi, əyəri, öz xovu, öz xasiyyəti olan, hər rəngli dəvənin öz adı, öz tərifi var... Bədəvi öz dəvəsinin rənginə heç də biganə deyil. Yaxın Şərqdəki dəvələrin əksəri açıq mixəyidir; bu mixəyinin də ağı, qarası, hər cürəsi var. Amma ən dözümlü olan qaralar, daha dəyərlidir. Bəyaz dəvələr əsasən folklorda öyülür və hər zaman rəğbətlə anılır. Bədəvi qadınlarının, ağca dəvə yunundan toxunmuş bayram libasından ötrü ürəyi gedir. Ərlik qızlarınsa həmişə diləyi odu ki, ağca dəvənin belinə bərkidilmiş kəcavədə ər evinə gəlin getsinlər. Əlbəttə toy mərasimlərində təbii ki, ağca dəvə daha gözəgəlim sayılır.

Əvvəllər dəvə əsasən yük daşıyırdısa, indiki vaxtda buna o qədər hacət yoxdur. Belə ki, bədəvilərin həyat tərzi kökündən dəyişmək üzrədir. "Səhra gözəllərini" bizim əyyamda əsasən "dəvə cıdırı" üçün bəsləyirlər. Belə cıdırlar dəvə sahiblərinə kefin istəyən qazanc gətirir (xüsusilə Omanda, Əmiratda, Səudiyyə Ərəbistanında... İordaniyada isə dəvə cıdırı yalnız turistləri əyləndirmək məqsədlə keçirilir).

Dəvənin idman qabiliyyəti heyvanın üçyaşar vaxtınacan biruzə verir. Amma gələcək rekord və tamaşaçı alqışları üçün dəvəyə gündəlik məşqlər lazımdı. Neçə il hazırlıq keçən dəvənin qət elədiyi yolun uzunluğu təxminən Yaxın Şərqlə ABŞ arasında olan məsafə qədərincədir.

İordaniyada dəvələrin yürüşü adətən Vadiram səhrasında keçirilir. Bu həqiqətən baxımlı bir tamaşadır. Səhər obaşdan tamaşaçılar öz yerlərini tutur. Budur, yarışın başlanmağına siqnal verilir. Sayı 20, ya 10-dan artıq olan dəvə sürüsü yerindən götürülür. Hər dəvənin belinə çəkisi yüngül miniklər, daha doğrusu, oğlan uşaqları bağlanıb. Cıdır dəvələri adətən çox çevik, güclü və sürətlidir. (beləda surət saatda 60 km-ə çatır). Dəvələrnən eyni vaxtda, dəvə sahiblərinin cipləri də yerindən tərpənir. Onlar tozanağın arasında, bəzən yolu-rizi görmədən, əl-qollarını ölçə-ölçə, səs-küy sala-sala məxsusi hayqırtılarnan öz dəvələrini cuşa gətirmək, onlara qol-qanad vermək istəyir. Dəvənin belindəki uşaqlar qan-tər içində dabanları ilə heyvanları məhmizləyir, dəvələr çapdıqca, dəvənin belindəki miniklər kukla kimi atılıb-düşürlər. Budur, axır ki, bir dəvə hamıdan irəli sıyrılır. Camaat hay-haray salır, həm sevinir, həm peşman olur. Ehtirasların belə coşmağına at cıdırlarında rast gəlməzsən. Bu da finiş. Qalib, dəvənin belinə sarınan iplərdən açılır, oğlan ayaq üstə güclə duruş gətirir. Gözləri gülür, çöhrəsində məğrurluq oxunur. Sonra balaca qalibin başına, sözün əsl mənasında təhsin və təriflər yağdırılır. Dəvə sahibi isə bu cıdırdan hədiyyələr, böyük pullar qazanır.

Görəsən dəvənin qazandığı nə olur?

